# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№299/3** **16 aprel 2018-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitənin müfəttişlərinin siyahısının təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 nömrəli "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"a uyğun olaraq "Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitənin müfəttişlərinin siyahısının təsdiqi" barədə Keyfiyyətə nəzarət üzrə komitənin sədri V.Kərimovun təqdim etdiyi komitənin müfəttişlərinin siyahısının layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitənin müfəttişlərinin siyahısı aşağıdakı tərkibdə təsdiq edilsin:

I. Səfərova Aygün Saday qızı - "Alfa-Audit" MMC-nin auditoru;

II. Seyfulla Nail Mirzəhüseyn oğlu - "ABAK-Az Crowe LTD" MMC-nin auditoru;

III. Hacıəzizov İlham İsfəndiyar oğlu - Sərbəst auditor;

IV. Əliyev Xaləddin Cəlal oğlu - Sərbəst auditor;

V. İsgəndərov Səməd Mahmud oğlu - Sərbəst auditor.

2. Keyfiyyətə nəzarət üzrə komitəyə (V.Kərimov) və Auditin keyfiyyətinə nəzarət şöbəsinə (Y.Namazəliyev) tapşırılsın ki:

- 2018-ci ilin may ayında Keyfiyyətə nəzarət üzrə komitənin müfəttişlərinin təlimatlandırılması və onlara əməli köməklik göstərilməsi məqsədilə seminarın keçirilməsini təmin etsinlər;
- 2018-ci il ərzində keçiriləcək auditor xidmətinin keyfiyyətinə nəzarəti Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 nömrəli "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"ın müddəalarına uyğun olaraq aparılmasını təmin etsinlər.

3. Bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**